# Prezident İlham Əliyev Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində olub.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı qəsəbənin ərazisinə baxış keçirib.

Qeyd edək ki, qəsəbə 1991-ci il dekabrın 28-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Bu il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra Azərbaycan Ordusu Kərkicahan qəsəbəsini separatçılardan azad edib.

Azərbaycan.- 2023.- 17 oktyabr.- S.6.